**Azərbaycan Respublikasının Nazirlər Kabineti**

# «Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamə»nin təsdiq edilməsi barədə

**Qərar № 84**

***Bakı şəhəri, 18 mart 2006-cı il***

«Meliorasiya və irriqasiya haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 25 iyun tarixli, 277 nömrəli Sərəncamına və «Meliorasiya və irriqasiya haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli, 165 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. «Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamə» təsdiq edilsin (əlavə olunur).

2. «Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamənin və sudan istifadə tariflərinin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 17 iyun tarixli, 97 nömrəli qərarı (tariflərə dair müddəaları istisna olmaqla) qüvvədən düşmüş hesab edilsin.

3. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***A. RASİ-ZADƏ***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 mart 2006-cı il, № 3, maddə 305).***

---

*Azərbaycan Respublikası*
*Nazirlər Kabinetinin*
*2006-cı il 18 mart tarixli,*

*84 nömrəli qərarı ilə*
***təsdiq edilmişdir***

**Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında**

**Əsasnamə**

## *1. Ümumi müddəalar*

1.1. Bu Əsasnamə «Meliorasiya və irriqasiya haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 25 iyun tarixli, 277 nömrəli Sərəncamının, «Meliorasiya və irriqasiya haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 29 dekabr tarixli, 165 nömrəli Fərmanının və «Aqrar bölmədə idarəetmənin təkmilləşdirilməsi tədbirləri haqqında» Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 23 oktyabr tarixli, 467 nömrəli Sərəncamının icrası olaraq Azərbaycan Respublikasının Su Məcəlləsinə, Azərbaycan Respublikasının digər müvafiq qanunlarına və bu qanunlar əsasında qəbul edilmiş normativ hüquqi sənədlərə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - Cəmiyyət) su təsərrüfatı istismar təşkilatları ilə respublika ərazisində yerləşən su istehlakçıları (Sudan İstifadəedənlər Birlikləri istisna olmaqla) arasında sudan pullu istifadə ilə bağlı yaranan qarşılıqlı münasibətləri tənzimləyir.

1.2. Cəmiyyətin su təsərrüfatı istismar təşkilatları ilə Sudan İstifadəedənlər Birlikləri arasında sudan pullu istifadə ilə bağlı yaranan qarşılıqlı münasibətləri «Meliorasiya və irriqasiya haqqında» Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinin tələblərinə əsasən aşağıdakı qaydada tənzimlənir.

Sudan İstifadəedənlər Birliklərinin suvarma suyu ilə təchiz edilməsi Cəmiyyətin su təsərrüfatı istismar təşkilatları ilə 10 ildən az olmayan müddətə bağlanan sazişə əsasən həyata keçirilir. Su mənbələrində suyun bolluğu səviyyəsinə mütənasib olaraq veriləcək suyun həcminin yuxarı və aşağı hədləri həmin sazişdə müəyyən olunur. Əkinlərin növündən və sahəsindən asılı olaraq tələb olunan suyun həcmi və suyun verilməsi qrafiki bu hədlər daxilində illik müqavilələrlə müəyyən edilir. Sazişlərin və illik müqavilələrin formaları Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

1.3. Cəmiyyətin su təsərrüfatı istismarı təşkilatları ilə su istehlakçıları arasında sudan pullu istifadəyə dair hesablaşmalar sudan istifadənin təsdiq olunmuş tarifləri əsasında aparılır.

1.4. Cəmiyyətin su təsərrüfatı istismarı təşkilatları su mənbələrinin təsdiq edilmiş limitlərinə və sudan istifadə planlarına əsasən su istehlakçılarına nəzərdə tutulmuş həcmdə və müddətlərdə suyun verilməsini təmin etməlidir.

1.5. Su istehlakçıları meliorasiya və irriqasiya sistemlərini və onların üzərindəki hidrotexniki qurğuları qoruyub saxlamalı, onların korlanmasına və dağıdılmasına yol verməməli, sudan

səmərəli və qənaətlə istifadə etməli, vaxtında aqrotexniki tədbirlər həyata keçirməklə torpaqların meliorativ vəziyyətinin pisləşməsinə yol verməməlidirlər.

1.6. Meliorasiya və irriqasiya sistemləri və qurğularında qəza baş verərsə, onların aradan qaldırılmasında Cəmiyyətin su təsərrüfatı istismar təşkilatları ilə birlikdə su istehlakçıları da iştirak edə bilərlər.

Əgər qəza hər hansı təşkilat və ya şəxs tərəfindən törədilibsə, dəymiş zərər günahkar tərəfindən Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq ödənilir.

1.7. Cəmiyyətin su təsərrüfatı istismar təşkilatlarının razılığı olmadan su mənbələrindən suyun özbaşına götürülüb istifadə edilməsi qadağandır.

***2. Sudan istifadə tarifləri***

2.1. Su ehtiyatlarının mənbələrdən götürülməsi, nəqli və istehlakçılara çatdırılması ilə əlaqədar olan xərclər vergi qanunvericiliyinə və ondan irəli gələn normativ aktlara uyğun iqtisadi cəhətdən əsaslandırılır.

2.2. Cəmiyyət tərəfindən satılan suyun tarifləri onun keyfiyyətindən, istifadə edilməsi təyinatından (içməli su, texniki su, suvarma suyu və s.), su təsərrüfatı obyektlərinin texniki səviyyəsindən, suyun götürülmə və nəql edilmə üsullarından və istehsal xərclərinin həcminə təsir edən digər amillərdən asılı olaraq ayrı-ayrı su təsərrüfatı sistemləri üzrə diferensiallaşdırıla bilər. Sudan İstifadəedənlər Birliklərinə, bələdiyyələrə, kənd təsərrüfatı su istehlakçılarına, sənaye, kommunal-məişət və digər məqsədlər üçün verilən suyun tarifi verilmiş suyun həcminə görə (kub metr), qış otlaq sahələrinə və örüşlərə verilən sudan istifadənin tarifi isə su ilə təmin edilmiş sahənin ölçüsünə görə (hektarla) müəyyənləşdirilir.

2.3. Sudan istifadənin tarif layihələri Cəmiyyət tərəfindən hazırlanır və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasına təqdim edilir.

2.4. Sudan İstifadəedənlər Birliklərinə, bələdiyyələrə və kənd təsərrüfatı su istehlakçılarına verilən suvarma suyunun, habelə qış otlaq sahələrinə və örüşlərə verilən suyun tarifləri güzəştli, sənaye, kommunal-məişət və digər məqsədlər üçün sudan istifadənin tarifləri isə verilən suyun istehsalına çəkilən faktiki xərclər əsasında Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən təsdiq edilir.

2.5. Sudan İstifadəedənlər Birliklərinin öz üzvlərinə və üzvü olmayan şəxslərə verdiyi suya görə haqları Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının müəyyən etdiyi su tarifləri, habelə istifadəsində olan meliorasiya və irriqasiya sistemlərinin saxlanmasına, istismarına, yaxşılaşdırılmasına və inkişafına tələb olunan xərclər nəzərə alınmaqla, Birlik müəyyən edir.

2.6. Bələdiyyələrin su təsərrüfatı obyektində sudan istifadə haqqı və onun diferensiallaşdırılması suyun keyfiyyətindən, istifadəyə görə təyinatından (içməli, texniki, suvarma və s.) su

ehtiyatlarının və ona tələbatın fəsillər üzrə dəyişkənliyindən, su təsərrüfatı obyektlərinin texniki səviyyəsindən, suyun götürülmə və nəql edilmə üsullarından və istehsal xərclərinin həcminə təsir edən digər amillərdən asılı olaraq bələdiyyələr tərəfindən müəyyən edilir.

2.7. Xüsusi mülkiyyətdə olan su obyektlərində sudan istifadə haqqı mülkiyyətçilərlə su istehlakçıları arasında bağlanmış müqavilə əsasında müəyyən olunur.

2.8. Suyun ölçülməsi və uçotu «Suların dövlət uçotu Qaydasının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 17 yanvar tarixli, 7 nömrəli qərarına əsasən aparılır.

### *3. Sudan istifadə haqqının ödənilməsi*

3.1. Sudan pullu istifadə Cəmiyyətin su təsərrüfatı istismar təşkilatları ilə su istehlakçıları (Sudan İstifadəedənlər Birlikləri istisna olmaqla) arasında bağlanmış müqavilələr və aktlar əsasında həyata keçirilir (1, 2 və 3 nömrəli əlavələr).

3.2. Cəmiyyətin su təsərrüfatı istismar təşkilatları və su istehlakçıları tərəfindən təyin edilmiş şəxslər suyun verilməsini, alınmasını və ondan istifadə olunmasını göstərən və hər iki tərəfin imzaları ilə təsdiq olunan hesabat aparırlar. Bu hesabatlar əsasında ayda bir dəfə və hər suvarmadan sonra bu Əsasnaməyə əlavə edilmiş formada aktlar tərtib olunur.

3.3. Su istehlakçıları götürüləcək suyun dəyərinin hər ayın əvvəlində avans şəklində 30 faizini, qalan hissəsini isə sonrakı ayın 5-dək ödəyirlər.

3.4. Su istehlakçıları tərəfindən sudan istifadə haqqının su təsərrüfatı istismar idarələrinə natura şəklində ödənilməsinə icazə verilmir.

### *4. Su istehlakçılarına suyun verilməsi*

4.1. Cəmiyyətin su təsərrüfatı istismar təşkilatları tərəfindən su istehlakçılarına suyun verilməsi müəyyən edilmiş norma və normativlərə uyğun olaraq aşağıdakı hədlərdə təmin olunur:

4.1.1. sərhəd və sərhədyanı çaylardan - Azərbaycan Respublikasının qonşu dövlətlərlə bağladığı sazişlərdə müəyyən edilmiş su limitləri həddində;

4.1.2. respublikanın çaylarından - 75 faiz təminatlı illik su axımı həddində;

4.1.3. digər su mənbələrindən - təsdiq olunmuş limitlər həddində.

4.2. Əgər su təminatı bu Əsasnamənin 4.1-ci bəndində göstərilmiş hədlərdən aşağı olarsa, o zaman Cəmiyyətin su təsərrüfatı istismar təşkilatları su istehlakçılarını əvvəlcədən xəbərdar etməklə, verilən suyun miqdarını mütənasib olaraq azaldırlar.

4.3. Mənbədə suyun çatışmadığı hallarda, Cəmiyyətin su təsərrüfatı istismar təşkilatları su istehlakçılarını xəbərdar edərək, suyun verilməsini müvafiq qaydada azaldır və bərabər təminat prinsipinə əsaslanaraq buraxılmasını təmin edirlər.

4.4. Cəmiyyətin su təsərrüfatı istismar təşkilatları tərəfindən su istehlakçılarına üzürlü səbəb olmadan müqavilədə göstərilən miqdardan az su verildikdə, yaxud heç verilmədikdə, onların arasında yaranmış mübahisələrə, o cümlədən su istehlakçılarına dəymiş zərərlə əlaqədar məsələlərə su istehlakçılarının iştirakı ilə Cəmiyyət və yerli icra hakimiyyəti orqanları tərəfindən yerində birgə baxılır və məsələnin həlli üzrə tədbir görülür.

4.5. Suyun verilməsi, qəbul edilməsi və ondan istifadə olunması Cəmiyyətin su təsərrüfatı istismar təşkilatları ilə su istehlakçıları arasında razılaşdırılmış qrafik əsasında həyata keçirilir.

4.6. Su istehlakçılarına veriləcək suyun həcmi su mənbəyinin və suvarma sisteminin imkanları nəzərə alınmaqla, sudan istifadə qrafikinə əsasən müəyyən edilir və tərəflər arasında bağlanmış müqavilədə göstərilir.

4.7. Su istehlakçısı götürülən suyun həcminin dəyişməsi ilə əlaqədar təkliflərini su verilməsinə başlanmazdan əvvəl, 10 gündən gec olmayaraq, Cəmiyyətin su təsərrüfatı istismar təşkilatına təqdim etməlidir. Əks təqdirdə, sifarişin yerinə yetirilməsinə Cəmiyyətin su təsərrüfatı istismar təşkilatı zəmanət verməyə bilər.

4.8. Müəyyən müddət ərzində verilən suyun həcmi müqavilədə nəzərdə tutulduğundan az və ya çox olduğu hallarda tərəflərə sonrakı dövrlərdə bu fərqin aradan götürülməsini tələb etmək hüququ verilir.

4.9. Cəmiyyətin su təsərrüfatı istismar təşkilatlarının müqavilədə nəzərdə tutulduğundan artıq su vermək imkanı olduğu halda, yeni müddət və şərtlərlə bağlı dəyişikliklər tərəflər arasında əlavə razılaşma əsasında aparılır.

### *5. Suyun çatışmaması nəticəsində yaranmış mübahisələrin həlli*

5.1. Təbii şəraitdən asılı olaraq (təbii fəlakət, quraqlıq, daşqınlar, sellər və s.) mənbədə suyun azalması nəticəsində (bu Əsasnamənin 4.1-ci və 4.2-ci bəndləri) su istehlakçılarına dəymiş zərər, əkinlər sığorta edilibsə, müəyyən olunmuş qaydada müvafiq sığorta idarələri tərəfindən ödənilir.

5.2. Suvarılan sahə və suyun həcmi barədə tərəflər arasında yaranan mübahisələr qüvvədə olan qanunvericiliyə əsasən tənzimlənir.

5.3. Su istehlakçıları verilən sudan təyinatlı və səmərəli istifadə etməyərək suyun kanallara, kollektor-drenaj şəbəkələrinə və s. axıdılmasına və səlahiyyətli su təsərrüfatı istismar təşkilatlarının müəyyən olunmuş qaydada razılığı olmadan mənbələrdən özbaşına su götürülməsinə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə məsuliyyət daşıyırlar.

---

*«Azərbaycan Respublikasında*
*sudan pullu istifadə qaydaları*
*haqqında Əsasnamə»yə*
***1 nömrəli əlavə***

## I. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatları ilə su istehlakçıları arasında suvarma suyunun verilməsi üzrə müqavilənin nümunəvi forması

## Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatları ilə su istehlakçıları arasında suvarma suyunun verilməsi üzrə Müqavilə

«___» ________________ 200___-ci il

________________________________________________________________

*(su verən təşkilatın adı)*

Bundan sonra müqavilənin mətnində İcraçı adlanan __________________________________

*(vəzifəsi,*

________________________________________________________________

*soyadı, adı, atasının adı)*

şəxsində bir tərəfdən ___________________________________________________________

*(su istehlakçılarının adı)*

Bundan sonra müqavilənin mətnində Sifarişçi adlanan ________________________________

*(vəzifəsi,*

________________________________________________________________

*soyadı, adı, atasının adı)*

şəxsində digər tərəfdən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il mart tarixli, 84 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamə»yə uyğun olaraq 200__-ci ildə suvarılan əkin sahələrinə suyun verilməsi və qəbul edilməsi şərtlərinin müəyyənləşdirilməsi məqsədi ilə bu Müqaviləni bağlayırıq.

Sifarişçinin suvarılan əkin sahələrində 200___-ci ildə aparılacaq əkinlərin strukturu:

| **Bitkilərin adı** | **Əkin altında olan suvarılacaq sahələr (hektar)** |
|---|---|
| Taxıl | |
| Pambıq | |
| Yem bitkiləri | |
| Çoxillik əkmələr | |
| Bostan-tərəvəz | |
| Həyətyanı sahələr | |
| **Cəmi** | |

***Tərəflərin öhdəlikləri***

**1. İcraçının öhdəlikləri:**

1.1. su mənbələrinin təsdiq edilmiş limitlərinə və sudan istifadə planlarına əsasən Sifarişçiyə il ərzində (Müqavilə müddətində) onun əkin altında olan suvarılan sahəsinə aşağıda göstərilən qrafikə uyğun olaraq suvarma suyu vermək:

*min kub.m*

| **I** | **II** | **III** | **IV** | **V** | **VI** | **VII** | **VIII** | **IX** | **X** | **XI** | **XII** | **Cəmi** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |

1.2. balansında olan suvarma sistemlərini və onların üzərində olan hidrotexniki qurğuları saz və işlək vəziyyətdə saxlamaq;

1.3. Sifarişçiyə üzürlü səbəb olmadan Müqavilədə göstərilən miqdardan az su verildikdə, yaxud heç verilmədikdə, İcraçı ilə Sifarişçi arasında yaranmış mübahisələrə, o cümlədən Sifarişçiyə dəymiş zərərlə əlaqədar məsələlərə Sifarişçinin iştirakı ilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə yerli icra hakimiyyəti orqanları tərəfindən yerində birgə baxmaq və onların həlli üzrə tədbirlər görmək.

**Qeyd.** Təbii şəraitdən asılı olaraq suvarma normaları, verilən suyun həcmi və müddəti tərəflərin razılığı ilə dəyişdirilə bilər.

**2. Sifarişçinin öhdəlikləri:**

2.1. ona xidmət edən suvarma sistemlərini və onların üzərində olan hidrotexniki qurğuları qoruyub saxlamaq, onların korlanmasına və dağıdılmasına yol verməmək;

2.2. suvarma suyundan səmərəli və qənaətlə istifadə olunmasını təmin etmək, aqrotexniki tədbirləri vaxtında həyata keçirmək, torpaqların meliorativ vəziyyətinin pisləşməsinə yol verməmək;

2.3. istifadə edilmiş hər kub.m su üçün müəyyən edilmiş tariflərə uyğun olaraq ________ manat hesabından İcraçıya suyun dəyərini ödəmək.

**Qeyd.** 1. Sifarişçiyə Müqavilədə nəzərdə tutulan həddən artıq su verilərsə, bu barədə səbəbi göstərilməklə xüsusi akt tərtib olunmalıdır.

2. Müqavilədə göstəriləndən artıq su götürülərsə, verilən suyun dəyəri müəyyən olunmuş tarifin 1:1 nisbətində ödənilməlidir.

3. Sifarişçi nəzərdə tutulmuş sudan imtina edərsə, bu barədə Müqavilədə nəzərdə tutulmuş suyun verilməsi tarixindən ən geci 7 gün əvvəl İcraçını xəbərdar etməlidir.

**3. Müqavilə üzrə qarşılıqlı hesablaşma**

3.1. Sifarişçiyə verilən suyun hesabatı hər ay aparılır və İcraçı ilə Sifarişçi arasında müvafiq aktla sənədləşdirilir.

3.2. Sifarişçi verilən suyun həcmindən asılı olaraq, hər ay ödənilməli olan vəsaitin əvvəlcədən 30 faizini avans formasında, qalan hissəsini isə sonrakı ayın 5-dək ödəyir.

**4. Tərəflərin məsuliyyəti**

Müqavilədə göstərilən öhdəliklər yerinə yetirilməzsə, yaxud lazımi qaydada yerinə yetirilməzsə, İcraçı və Sifarişçi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun məsuliyyət daşıyırlar.

5. Müqavilə üzrə yaranan mübahisələr məhkəmə qaydasında həll edilir.

6. Müqavilə 2 nüsxədə tərtib edilmişdir, bunlardan biri İcraçıda, digəri isə Sifarişçidə qalır.

7. Müqavilənin qüvvədə qalma müddəti :

200___-ci il «____» _____________ tarixdən başlayır.

200___-ci il «____» _____________ tarixdə qurtarır.

8. Tərəflərin hüquqi ünvanları və hesablaşma hesablarının nömrələri:

**İcraçı ____________________________________________________________________**

**Sifarişçi _______________________________________________________________**

| | |
|---|---|
| ***İcraçı*** | ***Sifarişçi*** |
| ***M.Y.*** | ***M.Y.*** |

---

**II. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatları ilə su istehlakçıları arasında suvarma suyunun verilməsi üzrə aktın nümunəvi forması**

İcraçı ______________________________________________________________________

*(Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatının adı)*

Sifarişçi ____________________________________________________________________

*(su istehlakçısının adı)*

________________________________________________ ____ tarixdə əkin sahələrinin suvarılmasına verilən suyun həcmi və dəyərinin müəyyənləşdirilməsi barədə

**Akt**

Verilmiş suyun həcmi ____________________________________________________ kub. m

1 kub.m sudan istifadənin tarifi __________________________ _________________ manat

Ödəniləcək vəsaitin məbləği ______________________________________________ manat

| İcraçı: | | Sifarişçi: | |
|---|---|---|---|
| 1. | ________________________________ | 1. | ________________________________ |
| 2. | ________________________________ | 2. | ________________________________ |
| 3. | ________________________________ | 3. | ________________________________ |
| 4. | ________________________________ | 4. | ________________________________ |
| 5. | ________________________________ | 5. | ________________________________ |

| | |
|---|---|
| ***İcraçı*** | ***Sifarişçi*** |
| ***M.Y.*** | ***M.Y.*** |

---

*«Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları*

*haqqında Əsasnamə»yə*
***2 nömrəli əlavə***

**I. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatları ilə su istehlakçıları arasında qış otlaq sahələrinin və örüşlərin su təminatı üzrə müqavilənin nümunəvi forması**

**Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatları ilə su istehlakçıları arasında qış otlaq sahələrinin və örüşlərin su təminatı üzrə**
**Müqavilə**

«___» ________________ 200___-ci il

___________________________________________________________________________________

*(su verən təşkilatın adı)*

Bundan sonra müqavilənin mətnində İcraçı adlanan __________________________________

*(vəzifəsi,*

___________________________________________________________________________________

*soyadı, adı, atasının adı)*

şəxsində bir tərəfdən ____________________________________________________________

*(su istehlakçılarının adı)*

Bundan sonra müqavilənin mətnində Sifarişçi adlanan _______________________________

*(vəzifəsi,*

___________________________________________________________________________________

*soyadı, adı, atasının adı)*

şəxsində digər tərəfdən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 mart tarixli, 84 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamə»yə uyğun olaraq 200__-ci ildə qış otlaq sahələrinə və örüşlərə suyun verilməsi və qəbul edilməsi məqsədi ilə bu Müqaviləni bağlayırıq.

***Tərəflərin öhdəlikləri***

**1. İcraçının öhdəlikləri:**

1.1. su mənbələrinin təsdiq edilmiş limitlərinə və sudan istifadə qaydalarına əsasən Sifarişçiyə il ərzində (müqavilə müddətində) onun aşağıda göstərilən ___________ ha qış otlaq sahələrinə və örüşlərinə mövcud normativlərə uyğun su vermək:

| Təsərrüfatın adı | Təhkim olunmuş qış otlaq sahəsinin adı | Sahəsi (ha) |
|---|---|---|
| | | |

1.2. balansında olan qış otlaqlarının su təminatı sistemlərini və onların üzərində olan hidrotexniki qurğuları saz və işlək vəziyyətdə saxlamaq;

1.3. Sifarişçiyə üzürlü səbəb olmadan Müqavilədə göstərilən miqdardan az su verildikdə, yaxud heç verilmədikdə, İcraçı ilə Sifarişçi arasında yaranmış mübahisələrə, o cümlədən Sifarişçiyə dəymiş zərərlə əlaqədar məsələlərə Sifarişçinin iştirakı ilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə yerli icra hakimiyyəti orqanları tərəfindən yerində birgə baxmaq və onların həlli üzrə tədbirlər görmək.

**2. Sifarişçinin öhdəlikləri:**

2.1. istifadə etdiyi su təminatı sistemlərini və onların üzərində olan hidrotexniki qurğuları qoruyub saxlamaq, onların korlanmasına və dağıdılmasına yol verməmək;

2.2. sudan səmərəli və qənaətlə istifadə etmək, onun lüzumsuz axıdılmasına yol verməmək;

2.3. müəyyən edilmiş tariflərə uyğun olaraq öhdəsində olan sahələrin hər hektarı üçün __________ manat hesabından İcraçıya suyun haqqını ödəmək.

**Qeyd.** Sifarişçi nəzərdə tutulmuş sudan imtina edərsə, bu barədə ən geci 7 gün əvvəl İcraçını xəbərdar etməlidir

**3. Müqavilə üzrə qarşılıqlı hesablaşma**

3.1. Sifarişçiyə verilən suya görə xidmət olunan sahənin hesabatı hər ay aparılır və İcraçı ilə Sifarişçi arasında müvafiq aktla sənədləşdirilir.

3.2. Sifarişçi xidmət olunan sahənin ölçüsündən asılı olaraq, hər ay ödənilməli vəsaitin əvvəlcədən 30 faizini avans formasında, qalan hissəsini isə qışlama mövsümünə mütənasib olaraq sonrakı ayın 5-dək ödəyir.

**4. Tərəflərin məsuliyyəti**

Müqavilədə göstərilən öhdəliklər yerinə yetirilməzsə, yaxud lazımi qaydada yerinə yetirilməzsə, İcraçı və Sifarişçi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun məsuliyyət daşıyırlar.

5. Müqavilədən irəli gələn mübahisələr məhkəmə qaydasında həll edilir.

6. Müqavilə 2 nüsxədə tərtib edilmişdir, bunlardan biri İcraçıda, digəri isə Sifarişçidə qalır.

7. Müqavilənin qüvvədə qalma müddəti :

200___ -ci il «____» _______________ tarixdən başlayır.

200___ -ci il «____» _______________ tarixdə qurtarır.

8. Tərəflərin hüquqi ünvanları və hesablaşma hesablarının nömrələri:

**İcraçı** ______________________________________________________________________

**Sifarişçi** __________________________________________________________________

| | |
|---|---|
| ***İcraçı*** | ***Sifarişçi*** |
| ***M.Y.*** | ***M.Y.*** |

---

**II. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatları ilə su istehlakçıları arasında qış otlaq sahələrinin və örüşlərin su təminatı üzrə aktın nümunəvi forması**

İcraçı ___________________________________________________________________________

*(Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatının adı)*

Sifarişçi ________________________________________________________________________

*(su istehlakçısının adı)*

__________________________________________________ tarixdə qış otlaq sahələrinin və örüşlərin su ilə təmin edilməsi və verilmiş suyun dəyərinin müəyyənləşdirilməsi barədə

**Akt**

Su ilə təmin olunmuş qış otlaq sahəsi və örüşlər ________________________ ha

1 ha qışlaq sahəsinə və örüşə verilən sudan istifadənin tarifi _______ manat

Ödəniləcək vəsaitin məbləği ___________________________________________ manat

| İcraçı: | | Sifarişçi: | |
|---|---|---|---|
| 1. | ___________________________________ | 1. | ___________________________________ |
| 2. | ___________________________________ | 2. | ___________________________________ |

| | | | |
|---|---|---|---|
| 3. | ________________________ | 3. | ________________________ |
| 4. | ________________________ | 4. | ________________________ |
| 5. | ________________________ | 5. | ________________________ |

***İcraçı*** ***Sifarişçi***
***M.Y.*** ***M.Y.***

---

*«Azərbaycan Respublikasında*
*sudan pullu istifadə qaydaları*
*haqqında Əsasnamə»yə*
***3 nömrəli əlavə***

## I. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatları ilə su istehlakçıları arasında sənaye, kommunal-məişət və digər məqsədlər üçün suyun verilməsi üzrə müqavilənin nümunəvi forması

## Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Camiyyətinin su təsərrüfatı istismar təşkilatları ilə su istehlakçıları arasında sənaye, kommunal-məişət və digər məqsədlər üçün suyun verilməsi üzrə Müqavilə

«___» ________________ 200___-ci il

__________________________________________________________________________

*(su verən təşkilatın adı)*

Bundan sonra müqavilənin mətnində İcraçı adlanan ___________________________________

*(vəzifəsi,*

__________________________________________________________________________

*soyadı, adı, atasının adı)*

şəxsində bir tərəfdən _______________________________________________________________

*(su istehlakçılarının adı)*

Bundan sonra müqavilənin mətnində Sifarişçi adlanan ________________________________

*(vəzifəsi,*

---

*soyadı, adı, atasının adı)*

şəxsində digər tərəfdən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 18 mart tarixli, 84 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında sudan pullu istifadə qaydaları haqqında Əsasnamə»yə uyğun olaraq 200__-ci ildə suyun verilməsi və qəbul edilməsi məqsədi ilə bu Müqaviləni bağlayırıq.

***Tərəflərin öhdəlikləri***

**1. İcraçının öhdəlikləri:**

1.1. su mənbələrinin təsdiq edilmiş limitlərinə və sudan istifadə qaydalarına əsasən Sifarişçiyə il ərzində (müqavilə müddətində) aşağıda göstərilən qrafikə uyğun su vermək:

Sifarişçiyə verilən suyun aylar üzrə bölgüsü (min kub.m)

*min kub.m*

| I | II | III | IV | V | VI | VII | VIII | IX | X | XI | XII | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |

1.2. balansında olan sistemləri və onların üzərində olan hidrotexniki qurğuları saz və işlək vəziyyətdə saxlamaq;

1.3. Sifarişçiyə üzürlü səbəb olmadan Müqavilədə göstərilən miqdardan az su verildikdə, yaxud heç verilmədikdə, İcraçı ilə Sifarişçi arasında yaranmış mübahisələrə, o cümlədən Sifarişçiyə dəymiş zərərlə əlaqədar məsələlərə Sifarişçinin iştirakı ilə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti ilə yerli icra hakimiyyəti orqanları tərəfindən yerində birgə baxmaq və onların həlli üzrə tədbirlər görmək.

**Qeyd.** Təbii şəraitdən asılı olaraq verilən suyun həcmi və müddəti tərəflərin razılığı ilə dəyişdirilə bilər.

**2. Sifarişçinin öhdəlikləri:**

2.1. sudan səmərəli və qənaətlə istifadə olunmasını təmin etmək;

2.2. müəyyən edilmiş tariflərə uyğun olaraq suyun hər kub metrinə __________ manat hesabından İcraçıya suyun dəyərini ödəmək.

**Qeyd.** 1. Sifarişçiyə Müqavilədə nəzərdə tutulandan artıq su verilməsi hallarında səbəbi göstərilməklə xüsusi akt tərtib olunur.

2. Müqavilədə göstəriləndən artıq su götürülərsə, suyun dəyəri müəyyən olunmuş tarifin 1:1 nisbətində ödənilir.

3. Sifarişçi nəzərdə tutulmuş sudan imtina edərsə, bu barədə ən geci 7 gün əvvəl İcraçını xəbərdar etməlidir.

**3. Müqavilə üzrə qarşılıqlı hesablaşma**

3.1. Sifarişçiyə verilən suyun hesabatı hər ay aparılır və İcraçı ilə Sifarişçi arasında müvafiq aktla sənədləşdirilir.

3.2. Sifarişçi alınacaq suyun həcmindən asılı olaraq, hər ay ödənilməli vəsaitin əvvəlcədən 30 faizini avans formasında, qalan hissəsini isə sonrakı ayın 5-dək ödəyir.

**4. Tərəflərin məsuliyyəti**

Müqavilədə göstərilən öhdəliklər yerinə yetirilməzsə, yaxud lazımi qaydada yerinə yetirilməzsə, İcraçı və Sifarişçi Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun məsuliyyət daşıyırlar.

5. Müqavilədən irəli gələn mübahisələr məhkəmə qaydasında həll edilir.

6. Müqavilə 2 nüsxədə tərtib edilmişdir, bunlardan biri İcraçıda, digəri isə Sifarişçidə qalır.

7. Müqavilənin qüvvədə qalma müddəti:

200___-ci il «____» _____________ tarixdən başlayır.

200___-ci il «____» _____________ tarixdə qurtarır.

8. Tərəflərin hüquqi ünvanları və hesablaşma hesablarının nömrələri:

**İcraçı** ___________________________________________________________________

**Sifarişçi** _________________________________________________________________

| | |
|---|---|
| ***İcraçı*** | ***Sifarişçi*** |
| ***M.Y.*** | ***M.Y.*** |

---

## II. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatları ilə su istehlakçıları arasında sənaye, kommunal-məişət və digər məqsədlər üçün suyun verilməsi üzrə aktın nümunəvi forması

İcraçı ________________________________________________________________________

*(Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin su təsərrüfatı istismar təşkilatının adı)*

Sifarişçi ___________________________________________________________________

*(su istehlakçısının adı)*

__________________________________________________________ tarixə verilmiş su və verilmiş suyun dəyəri barədə

**Akt**

Verilmiş suyun həcmi _____________________________________________ kub. m

1 kub.m sudan istifadənin tarifi _____________________________________ manat

Ödəniləcək vəsaitin məbləği _______________________________________ manat

| İcraçı: | | Sifarişçi: | |
|---|---|---|---|
| 1. | ________________________________ | 1. | ________________________________ |
| 2. | ________________________________ | 2. | ________________________________ |
| 3. | ________________________________ | 3. | ________________________________ |
| 4. | ________________________________ | 4. | ________________________________ |
| 5. | ________________________________ | 5. | ________________________________ |

***İcraçı***
***M.Y.***

***Sifarişçi***
***M.Y.***